## HƏYATININ ƏSAS TARİXLƏRİ

| | |
|---|---|
| 1934 | Tapdıqov İlyas Oruc oğlu noyabr ayının 30-da Gədəbəy rayonunun Əli İsmayıllı kəndində anadan olmuşdur. |
| 1952-1956 | Gədəbəyin kiçik Qaramurad kəndində orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır. |
| 1953 | Azərbaycan jurnalında dərc edilən "Bakının gecələri" adlı şeirlə ədəbi yaradıcılığa başlamışdır. |
| 1955 | Şairin ilk kitabı "Kəndimizin çobanı" çap olunmuşdur. |
| 1957-1962 | Uşaqgəncnəşrdə redaktor vəzifəsində çalışmışdır. |
| 1958 | SSRİ Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir. |
| 1962-1968 | Azərnəşrdə redaktor, böyük redaktor vəzifələrində işləmişdir. |
| 1968-1976 | "Gənclik" nəşriyyatında böyük redaktor, redaksiya müdiri və baş redaktor olmuşdur. |
| 1976-1978 | Azərbaycan Baş Mətbuat Müvəkkilliyində qrup rəhbəri vəzifəsində çalışmışdır. |
| 1978-1983 | Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində televiziya gənclər baş redaksiyasının baş redaktoru vəzifəsində işləmişdir. |
| 1972 | Sovet uşaq ədəbiyyatı və incəsənəti nümayəndə heyətinin tərkibində Çexoslovakiyada olmuşdur;<br><br>"Aşıq Ələsgər" sənədli filminin ssenarisini yazmışdır. |
| 1973 | "Meşənin mahnısı" şeirlər kitabına görə Respublika Lenin komsomolu mükafatı laureatı olmuşdur. |
| 1977 | "Çimnaz oynayır" kitabı Moskvada rus dilində çap olunmuşdur. |
| 1979 | Sovet uşaq ədəbiyyatı və incəsənəti nümayəndə heyətinin tərkibində Macarıstanda olmuşdur. |
| 1980 | Azərbaycan komsomolunun XXX-XXXI qurultaylarına nümayəndə seçilmişdir. |
| 1984 | "Özümlə görüş" şeirlər kitabı "Yazıçı" nəşriyyatında çap olunmuşdur. |
| 1985 | Kiçikyaşlı məktəblilər üçün "Nağıllı ağaclar" şeirlər, yanıltmaclar və mənzum nağıllar kitabı "Gənclik" nəşriyyatında çap olunmuşdur. |

| | |
|---|---|
| 1987 | Kiçikyaşlı məktəblilər üçün "Şıltaq günəş" şeirlər, yanıltmaclar, poemalar kitabı "Gənclik" nəşriyyatında çap edilmişdir. |
| 1989 | "Gənclik" nəşriyyatı redaksiya şurasının üzvü, Azərbaycan komsomolu Şöhrət şurasının üzvü və bir sıra respublika festival və müsabiqələrində münsiflər heyətinin üzvü olmuşdur. |
| 1989 | Azərnəşr bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışır. |
| 1990 | "Məhəbbət yolları" şeirlər kitabı "Yazıçı" nəşriyyatında çap edilmişdir. |
| 1992-1995 | Türkiyənin Ankara şəhərində işləmişdir. |
| 1992-1995 | Ankara şəhərində Türk Standartları İnstitutunda və Xarici İşlər Nazirliyi və kalkınma ajansında müəllim, "Azərbaycan" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri olmuşdur.<br><br>Ankarada "Azerbaycan" dərgisinin redaksiyasında çalışmışdır. |
| 1994 | Anadan olmasının 60 illiyi Ankarada İLESAM tərəfindən təntənəli şəkildə qeyd edilmişdir. |
| 1994 | Türkiyənin İzmir şəhərində I Uluslararası Türk dünyası Turizm və Kültür Simpoziumunda iştirak etmişdir. |
| 2003 | Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2003-cü il tarixli Fərmanı ilə Prezident təqaüdünə layiq görülmüşdür. |
| 2005 | "Şeir sevən balalar" şeirlər və poemalar kitabı "Turan Nəşrlər evi"ndə çapdan çıxmışdır. |
| 2009 | "Seçilmiş əsərləri"nin birinci cildi "Şur" nəşriyyatında çap edilmişdir. |
| 2010 | "Seçilmiş əsərləri"nin ikinci cildi "Şur" nəşriyyatında çap edilmişdir. |
| 2016 | Ürəyindən əməliyyat olunmuş şair 25 dekabr tarixində axşam saatlarında Bakı şəhərində vəfat etmişdir. |